


# Çağdaş tariximizin şanlı səhifəsi

## 80 yaşlı 21 Azər və Pişəvəri müəmması

Turan Uğur
AYB üzvü



*Azərbaycan Demokratik Firqəsinin sədri, Azərbaycan Milli Hökumətinin rəhbəri, jurnalist, publisist, ictimai xadim Seyid Cəfər Pişəvərinin ruhuna sonsuz sayğılarla! (21 Azər hərəkatının 80 illiyinə - babam İsmayıl Paydar-Dəryaninin və fədailərimizin uca ruhlarına ithaf edirəm)*

**(əvvəli ötən sayımızda)**

***...Bu sualları yağış kimi Çavuşi Seyid Cəfərə yağdırırdı.Seyid Cəfər isə naçar durumda 'heynim" deyirdi.***

***-Bəs Qəvam hökuməti ilə danışığa gedənlər kimlər idi?***

***-Ali Sovetin sədri Hacı Mirzəli Şəbüstəri, Sadıq Padigan, general Pənahian, daxili işlər naziri doktor Cavid.***

***Fabrikə qayıdan kimi hamıya bildirdim ki, bütpərəstlik eləməyin, medalları tökün yerə.***

***-Nə üçün Lalə dağlarına çəkilmədik?***

***-Nə üçün Qaradağ meşələrinə çəkilmədik?***

***-Nə üçün ölüm-dirim döyüşünə atılmadıq?***

-Əlimizi qoynumuza qoyub düşmənin haçan hücuma keçəcəyini gözlədik.Nümayəndələr 74 gündən sonra qayıdıb xəbər gətirdilər ki, Qəvam tələb edir: Zəncanı verək.Əvəzinə 10 gündən sonra onlar bizə Təkabı verərlər.Bunlar, əlbəttə, hiylə idi.Qəvam qəsdən danışığı uzadır, Milli hökuməti al qanına boyamaq üçün qüvvə toplayır, məqam gözləyirdi.Nəhayət, onlar əyalət seçkiləri keçirmək bəhanəsi ilə Azərbaycan torpağına qoşun yeritdilər.Əvvəlcə Zəncanı tutub demokrat bir mollanı öldürdülər.

1946-cı ilin 2 dekabrıgPişəvəri Arazı keçib gedib.Bəzi mənbələrdə Seyid Cəfərin dekabrın qaçması tarixi ayın 13 - ü kimi qeyd etdiblər ki, bu, yanlışdır.Pişəvərinin ən son ana kimi duruş gətirməsi əfsanəsini boyalı şəkildə yazıblar.Ancaq bu gerçəkliyi dəyişə bilməz.Pişəvərinin ən yaxın silahdaşları dekabrın 2-dən sonra onu kabinetində görməmişdilər.

Kabineti boşdur.Biriya özünü MK-nın katibi kimi aparır.Pişəvərinin kabinetində nə edəcəyini bilmir.Məhəmməd Biriya:

-Balam, gəlin görax da.Bu düymələrin hansını basax, haradı.

-Təbrik edirəm, Biriya.Axır ki, niyyətinizə çatdınız.Hökuməti devirdiniz.Ancaq çox da sevinmə, sənin hökmranlığın da yarım saatlıqdır.

Bu sözləri Təbrizdə Mir Mehdi Çavuşi Biriyanın üzünə söyləyir.

Bakı, Xaqani küçəsigPişəvərinin evi.Ortada nərdtaxta var.Çavuşi və Pişəvəri nərd oynayırlar.Əllər zər atsa da, üzlər kədərlidir.Birdən Seyid Cəfər əl saxlayır:

-Miri, axı sən həmişə yaxşı oynayırdın.Niyə belə könülsüzsən?

Zərləri cütləyib nərdtaxtanın üstünə qoyan Çavuşi kədərlə dolu iri gözlərini Seyid Cəfərin üzünə dikir.

Çavuşinin gözləri Pişəvərini ittiham edir, həm də ondan cavab gözləyir:

-Axı sən deyirdin, gərək üstümüzdən tanklar keçə.Ancaq o tanklar 25 min azəri türkünü al qana boyadı.Halbuki, o 25 mindən onca mini döyüş meydanına çıxsaydı, əgər başçı meydandan qaçmasaydı, biz nəinki Azərbaycanı, hətta bütün İranı xilas edə bilərdik.

-Sən məni bağışla, Miri.

Pişəvəri Çavuşidən üzr istəməklə bütün xalqdan üzr istəmiş olurdu.Onun qarşısında Təbriz şəhər firqə komitəsinin katibi dayanmışdı.Bir neçə gün ərzində 10 komitə yaradan, 14 min təbrizlinin partiya sıralarına keçməsini təmin edən bir insanın indi bir cüt zərə gücü çatmırdı.

Fədai Əsgər Süleymani o günləri belə xatırlayırdı:

"1946-cı ilin 14-16 may tarixlərində Təbrizdə keçirilən müşavirədə mən də iştirak edirdim.Burada gözü çeşməkli, mavi gözlü bir rus nümayəndəsi SSRİ tərkibinə daxil olmağı bizə təklif etdi.Verilən cavablar eynilə yadımdadır.Məhəmməd Qazi dedi ki, biz bir boyunduruqdan açılıb digərinə qoşula bilmərik.Pişəvəri isə sərt yox, nəzakətlə cavab verdi:

"Əlbəttə, sizin qardaşlıq ailəsində yaşamaq bizim üçün şərəfdir.Lakin hələlik belə bir addım atmağa ona görə yol vermərik ki, bu Tehran, Vaşinqton radiolarının, mətbuatının hər gün bizim barədə qusduğu yalanı təsdiq etmiş olar.Lakin Sovet Azərbaycanının Cənubi Azərnaycanla birləşməsinə razılıq versəniz, SSRnin yanında Çexoslavakiya kimi bir respublika yaranmış olar.Əlbəttə, Stalin belə bir təklifə razılıq verə bilməzdi.Dekabrın 9-da bizə demişdilər ki, düşmənə qarşı son nəfəsinə kimi döyüşənlərə Azərbaycan qəhrəmanı adı veriləcək.Zatən heç kəs qaçmaq niyyətində deyildi.Ertəsi gün Təbriz İran faşistləri tərəfindən tutulduqda xalqı aldatdılar.Radiodan elan etdilər ki, biz seçki keçirməyə gəlmişik, silaha əl atmayın.Xalq bu vədə inandı.Ən ciddi səhvlərdən biri bu oldu ki, Pişəvərinin, Qulam Yəhyanın və Bedaganın ailəsi Təbrizdən köçürüldü.Xalq bundan təşvişə düşdü, köçməyə başladı.Culfada bu taya keçəndə sərhədçilər demişdilər ki, bizə yalnız 3 ailəni buraxmaq tapşırılıb.Əslində, Güney Azərbaycan Hökuməti elə bir qüvvəyə malik idi ki, öz gücü ilə İranı başdanayağa kimi tuta bilərdi.Fars zabitləri dəstə-dəstə bizim tərəfə keçirdilər.Bağırovun, Stalinin himayəsinə sığınıb inqilabi qətiyyəti əldən verən Pişəvərinin nöqsanı bağışlanmazdı.





-"Axı sən fədailərini qoyub hara qaçırsan?"-deyən cəsur Azərbaycan qəhrəmanı, şair, alim, general

Əli Azəri Naxçıvanda Pişəvərini yaxalamış və ona bir sillə çəkmişdi.

-Bu, xalqın silləsi idi.Tarixi sillə idi.Yerində vurulmuş sillə idi.

Əli Azəri fransızca mükəmməl bilən, əsasən farsca yazan misilsiz şair idi.

***Nə Firudin İbrahimi, nə də Əli Azəri Seyid Cəfərlə düz gəlirdilər.Onlar daha qəti, daha inqilabi mövqe tuturdular.'Qonşuya ümid olan şamsız yatar" deyirdilər.***

***Pişəvəri Azərbaycanın böyük oğludur, inqilab xadimi, mühərriridir, ancaq ona yaraşmayan ölüm nəsib oldu.Halbuki ən şərəfli, ən gözəl ölüm qazanmaq imkanını tarix özü ona təklif etmişdi.***

Düşünürəm ki, Pişəvəri öyrədilmiş bir erməni şoferinin sürdüyü maşında başı dəmirə toxunub qan sızmasından deyil (əslində, Pişəvəri Gəncə-Yevlax yolunda, Yevlaxın 14 kilometrliyində baş verən qəzada yerindəcə həlak olmamışdı, xəstəxanada canını naməlum şəkildə tapşırmışdı) səngər başında, Təbrizdə qəhrəman kimi həlak olmalı idi.

Əsgər Süleymaninin bu sözləri ilə tamamən razılaşmaq olar.Amma maalisəf tarix təkrar olunmur, tarixdən ibrət isə əlbəttə götürülməlidir.Ona görə götürülməlidir ki, "qaynar qazan" düyününə dönən hərəkatımızın tüstüsü bugün də başımızdan çıxır, eləcə dəmadəm göyə qovzanır.Bu bizim içimizdəki tüstüdür, istiqlal, azadlıq, hürriyyət tüstüsüdür, o tüstünün düşmən gözlərini kor etməyə gücü yetmirsə, Pişəvəri sirrinin, Pişvəri müəmmasının çözülməsi də qiyamət gününə qalacaq.

Əlimdə Xalq yazıçısı Əzizə xanım Cəfərzadənin gündəliyindən bir parça var.Əzizə xanım Pişəvərinin son anlarını qələmə alıb, ağlayıb, hayqırıb, üsyan edib.Necə var o cür yazıram:

"11.7.47

Pişəvəri öldü...Ən böyük bir fəlakət...Bundan ağır xəbər təsəvvür etmək belə çətindir...Görəsən göz yaşlarım nə zaman quruyacaq"

Pişəvəridən sonra fədai dəstələri buraxıldı, güneylilər dərbədər oldu, amma iradəmiz qırılmadı.Əsas budur ki, bir akt kimi, bir fakt kimi 21 Azər hərəkatı tarixin yaddaş divarlarına hörüldü.Çözülməyən isə Pişəvəri müəmması oldu.O müəmma ağ çalmalı bulud kimi başımızın üzərində dolaşır.O bulud topalarını dağıtmaq hər bir həmşəridən, hər bir fədai övladından – onların nəvələrindən, nəticələrindən asılıdır.Ağ çalmalı bulud topası...ayazlı dekabr axşamı...İssız, xali küçələr...Bu sözlər yamanca tanış gəldi mənə.Pişəvərinin həbs olunduğu məşum günün mənzərəsi eynən bu cür deyildimi?! Bu 2 mənzərə - Birinci demokratın həbs olunan günü keçirdiyi sarsıntı ilə, şair, general Azərinin Pişəvəriyə bu tayda vurduğu sillə ürəyimizi ən çox sarsıdan epizodlardır."Azərinin vurduğu sillə millətin silləsidir" - deyən fədai Əsgər Süleymani tam haqlı idi. Pişəvəriyə sillə çəkən şair Azərinin əlləri isə bu saat mənim üzümü qızardacaq qədər istidir, həm də çox isti...

***1946-cı ilin dekabrı isə soyuq idi...Pişəvəri müəmması da çoxdan soyuyub, buzlaşıb, daşlaşıb, bir az da abidələşib.Abidələr isə təkcə xiyabanlarda ucalmır, həm də könüllərdə məskən salır.***

***Lap Seyid Cəfər Pişəvərinin abidəsi kimi.***

***(Millətimizn böyük oğlu Seyid Cəfər Pişəvəriyə həsr etdiyim portret – essedə atam Asif İsmayılzadənin, Mir Mehdi Çavuşinin, Seyid Cəfər Pişəvərinin, Əli Azərinin, Əsgər Süleymaninin, Xəlil Rza Ulutürkün, Qulamhüseyn Beqdelinin, Əzizə Cəfərzadənin, Söhrab Tahirin xatirələrinə, tədqiqatçı Əkrəm Rəhimlinin mülahizələrinə, habelə müəllifi olduğum "Fədailərimizi tanıyaq" rubrikasının materailarına söykənmişəm)***